# İşğaldan azad edilmiş ərazilərdə sahibkarlığa dövlət dəstəyi gücləndirilir








**Ölkəmizdə sahibkarlığın inkişafı, dəstəklənməsi əsasən ulu öndər Heydər Əliyevin ikinci hakimiyyəti illərinə təsadüf edir. Bu sahəni daim diqqət mərkəzində saxlayan, yerli və xarici sahibkarların qarşılaşdıqları süni maneələrin aradan qaldırılması istiqamətində mühüm sənədlər imzalayan ulu öndər Heydər Əliyev yerli sahibkarlarla görüşündə demişdir: "Siz bilməlisiniz ki, biz lazım olan qayğını göstərəcəyik. İnanıram ki, siz də sahibkarlıq xüsusiyyətlərini daha da dərindən mənimsəyəcəksiniz, sağlam, öz xalqına, vətəninə sədaqətlə xidmət edən sahibkarlar kimi inkişaf edəcəksiniz. Bunlar hamısı Azərbaycanda iqtisadiyyatın sürətlənməsini təmin edəcəkdir... Bilin ki, Azərbaycan Prezidenti bütün sahibkarların himayədarı və dayağıdır".**

Prezident Heydər Əliyev sahibkarlığa maliyyə dəstəyini gücləndirmək məqsədilə 27 avqust 2002-ci ildə "Azərbaycan Respublikasının Sahibkarlığa Kömək Milli Fondu haqqında Əsasnamənin təsdiq edilməsi barədə" Fərman imzalamışdı. Bu fərmanın icrasından sonra dövlət hesabına kiçik və orta sahibkarların etibarlı maliyyə müdafiəsi sistemi yaradılması reallaşdı, investisiya layihələrinin güzəştli şərtlərlə maliyyələşdirilməsi mexanizmi təkmilləşdirildi.

Sahibkarlığın İnkişafı Fondunun maliyyə mexanizmləri ölkədə biznes mühitinin gücləndirilməsi istiqamətində dövlət siyasətinin həyata keçirilməsi üçün əsas vasitələrdir. Xüsusilə, sahibkarlar bizneslərini genişləndirmək üçün güzəştli kredit mexanizmlərindən istifadə edirlər. Ötən il bu mexanizmdən yararlanan sahibkarlıq subyektlərinin sayı əhəmiyyətli dərəcədə artıb.

2024-cü ildə Sahibkarlığın İnkişafı Fondu tərəfindən güzəştli kreditlə təmin edilən sahibkarlıq subyektlərinin sayı 2023-cü illə müqayisədə 74,7 faiz artaraq 5722-yə çatıb. Verilmiş kreditlərin məbləği isə 28 faiz artaraq 248,1 milyon manat təşkil edib.

Həmçinin işğaldan azad edilmiş ərazilərdə iqtisadi aktivliyin bərpa olunmasına və investisiya qoyuluşlarının sürətlənməsinə dəstək diqqət mərkəzində saxlanılıb. Belə ki, fevral ayından etibarən "İşğaldan azad edilmiş ərazilərdə fəaliyyət göstərən sahibkarlara dəstək" çərçivəsində Qarabağ və Şərqi Zəngəzurda investisiya layihəsi həyata keçirən sahibkarların bank və bank olmayan kredit təşkilatlarından əldə etdikləri kreditlərin təxminən 90 faizinə dövlət zəmanət verilməsinə başlanılıb. Sahibkarların zəmanət-subsidiya mexanizminə müraciətləri əsasında 12 layihə üzrə 23,4 milyon manat kreditə 19,2 milyon manat dövlət zəmanəti verilib. Həmçinin bu kreditlər üzrə 6,2 milyon manat həcmində subsidiyanın verilməsi təsdiqlənib. Fond tərəfindən bu mexanizmlə maliyyələşdirilən layihələr sənaye, xidmət, turizm və kənd təsərrüfatı sahələrini əhatə edir.

İşğaldan azad edilmiş ərazilərdə sahibkarlıq fəaliyyətinin stimullaşdırılması istiqamətində zəmanət-subsidiya mexanizmi ilə yanaşı, güzəştli kredit dəstək tədbirləri davam etdirilib. Ötən il ərzində Fonddan icra olunan 3 layihə üzrə ümumilikdə 8,1 milyon manat güzəştli kredit əldə edilib.

Fond tərəfindən güzəştli kredit ilə təmin edilmiş layihələrin 94,7 faizi, güzəştli kredit məbləğinin isə 72 faizi regionların payına düşür.

2024-cü ildə sənaye, o cümlədən kənd təsərrüfatı məhsullarının emalı sahələrində fəaliyyət göstərən, eləcə də "yaşıl layihə"lər həyata keçirən sahibkarların fəaliyyətinin genişləndirilməsi məqsədilə Fondla əməkdaşlıq edən müvəkkil kredit təşkilatlarının nümayəndələri arasında "Sənaye və yaşıl layihələrə dəstək" müsabiqəsi keçirilib. Müsabiqə çərçivəsində Sahibkarlığın İnkişafı Fondunun vəsaiti hesabına 311 layihəyə 66 milyon manata yaxın kredit verilib.

Həmçinin İqtisadiyyat Nazirliyinin tabeliyində olan İqtisadi Zonaların İnkişafı Agentliyinin (İZİA) idarəçiliyində olan sənaye zonalarında 31 sahibkarlıq subyektinə rezidentlik, 1 sahibkara isə qeyri-rezidentlik statusu verilib. Ötən il həmin sənaye zonalarında 10 müəssisə fəaliyyətə başlayıb. Bu müəssisələr tərəfindən sənaye zonalarına ümumilikdə 48,6 milyon manat investisiya yatırılıb, 379 daimi iş yeri yaradılıb.

Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarına investisiya qoymaq istəyənlərin sayı günbəgün artır. Sözsüz ki, bu ərazilərdə qurulan infrastruktur müasir dövrün tələblərinə cavab verir və dövlət sahibkarlıq mühitinin canlanması üçün kifayət qədər güclü iqtisadi stimullardan istifadə edir. Belə ki, Azərbaycan Respublikasının 2022-ci il 9 dekabr tarixli "Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında" Qanununa əsasən, vergi məcəlləsinə işğaldan azad edilmiş ərazilərdə tətbiq edilən vergitutmanın xüsusiyyətləri" əlavə olunub. Əlavə olunmuş müddəalar həmin ərazilərdə sahibkarlıq fəaliyyəti üçün nəzərdə tutulmuş güzəştləri əhatə edir. Bu güzəştlərə əsasən işğaldan azad edilmiş ərazinin rezidentləri 2023-cü il yanvarın 1-dən etibarən 10 il müddətində mənfəət (gəlir), əmlak, torpaq və sadələşdirilmiş vergidən azaddırlar. Bu isə biznes subyektinin vergi yükünün əhəmiyyətli dərəcədə azaldılması deməkdir. Həmin ərazilərin rezidenti olan hüquqi şəxslər səhmdarlarının (payçılarını) dividend gəlirlərinə görə də vergidən azaddırlar.

İki ildir ki, sahibkarlıq fəaliyyəti üçün qoyulan investisiyanın əsas hissəsini təşkil edən kreditlərlə bağlı dövlət dəstəyi müəyyənləşdirilib. Azad olunmuş ərazilərdə fəaliyyət göstərən sahibkarlara kreditlərin verilməsini dəstəkləmək məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 9 yanvar tarixli Fərmanı ilə təsdiq edilmiş "İşğaldan azad edilmiş ərazilərdə fəaliyyət göstərən sahibkarlıq subyektlərinə verilən kreditlərin dövlət zəmanəti ilə təmin edilməsi və kredit faizlərinin subsidiyalaşdırılması Qaydası" və ona əlavə olunmuş "İşğaldan azad edilmiş ərazilərdə fəaliyyət göstərən sahibkarlıq subyektlərinə verilən kreditlərin dövlət zəmanəti ilə təmin edilməsi barədə Çərçivə Zəmanət Sazişi" qəbul olunub. Qəbul olunmuş qayda Qarabağ və Şərqi Zəngəzur regionunda fəaliyyət göstərən biznes subyektlərinə verilən kreditlər üçün dövlət zəmanəti və alınan kreditlərin faizlərinin subsidiyalaşdırılması şərtlərini müəyyən edir. Göründüyü kimi, dövlətimiz sahibkarlığın inkişafında maraqlıdır və daim bu sahənin inkişafını prioritet hesab edir.

**M.MİRZƏ,**
**"Respublika".**